# "Azərbaycan Respublikasının məşğulluq strategiyasının (2006-2015-ci illər)" təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında məşğulluq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, ölkədə əmək bazarının inkişaf etdirilməsi, yeni iş yerlərinin açılmasının sürətləndirilməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər əlaqədar dövlət orqanları ilə birlikdə:

2.1. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının layihəsini 6 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 oktyabr 2005-ci il